Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası




# Uşaqlar sevgi istər

**Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2024**

**Tərtibçi:** **Nərgiz Məcidova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günü** münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed Nərgiz.M; ixt.red. və burax. məsul Ş. Qəmbərova; - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2024. – 40s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2024**

# Giriş

1982-ci il avqustun 19-da BMT-nin Baş Assambleyası özünün Fələstin məsələsi üzrə xüsusi sessiyasında ES-7/8 nömrəli qətnaməsi ilə hər il iyunun 4-nü Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günü (International Day of Innocent Children Victims of Aggression) kimi qeyd etməyi qərara almışdır. Hərbi münaqişələr zonasında yaşayan uşaqlar – gələcəyi olmayan uşaqlardır. Bütün dünyada lokal münaqişələr zamanı nə qədər uşağın həlak olması haqqında dəqiq statistika aparan yoxdur. Müharibələrdə yalnız əsgərlərin deyil, uşaqların da həlak olduğunu unutmamaq üçün BMT bu günü təsis etmişdir. Bu günün əsas məqsədi dünyanın fiziki zorakılığa, mənəvi-psixoloji və ruhi təsirə məruz qalan bütün uşaqlarının ağrılarını və əzablarını hiss etmək cəhdidir. Bu gün həm də BMTnin həmin uşaqların qorunması haqqında məsələdə öhdəliklərini təsdiq edir.



Bir çox valideynlər belə bir sualın cavabını axtarırlar:Uşaqlar bizdən nə istəyirlər? “ Hər istədiyini edirik, hər şeyimizi ona uyğunlaşdırırıq amma hələ də bu uşağı xoşbəxt edə bilmirik”

deyirlər. Onlar "uşaqlar nə istəyir?" sualının cavabını tapa bilmirlər. Axı uşaqlar nə istəyirlər? Uşaqlar fərd olduqlarının fərqinə varılmasını istəyirlər. Onların da duyğu və düşüncələrinin olduğunu, ehtiyaclarının sadəcə yemək, yuxu və s. bu kimi şeylər deyil, həmçinin duyğusal zəmində də olduğunun fərqinə varılmasını istəyirlər. Uşaqlar da böyüklər kimi özünü ifadə etmək istəyərlər. Ailədən və cəmiyyətdən onlara sevgi və qayğının verilməsini istəyirlər.

Ailədə sevgi qayğı görmüş, aqressiyaya məruz qalmamış uşaq cəmiyyətədə xeyirli övlad kimi yetişəcəkdir. Cəmiyyətə xeyirli olacaq övlad vermək üçündə onlarla aqressiv davranışlara yol verməmək onlara sevgi vermək lazımdır. Cəmiyyətdə xeyirli insan olmaq üçün gələcəkdə bütün canlılara - insanlara, heyvanlara qarşı humanist, rəhimli olmaları üçünsə düzgün tərbiyə, xeyirxahlıq, humanistlik, qayğıkeşlik, əsas meyarlardan biridir. Onlara sevgi və qayğının yollarından əsası isə onlarla birbaşa ünsiyyət qurmağın vacibliyidir. İstər ailədə istər cəmiyyətdə uşaqlarla düzgün ünsiyyət əsasdır. Valideynləri uşaqları qucaqlamağı, öpməyi, saçını sığallamağı unutmamalıdır. Çünki dünyanın harasında olursa-olsunlar, rəngləri, görünüşləri fərqlənsə belə, arzuları, istəkləri eyni olan uşaqlar bir xoş təbəssüm, mehriban baxışdan bəxtiyar ola bilirlər. Uşaqlara sevgi ilə yanaşan, onları sadaladığımız insani keyfiyyətlərlə zəngin olmağa kömək edənlər arasında mədəniyyət işçiləri və mədəniyyət müəssisələri xüsusi yer tutur. Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasında da uşaqların gələcək dünyagörüşünün formalaşması ilə bağılı tədbirlər həyata keçirilir. Burada yetişməkdə olan gənc nəslin düzgün tərbiyəsində, uşaq və yeniyetmələrə öz hüquqlarını qorumalarında köməklik etmək üçün müxtəlif tədbirlər həyata keçirilir. Bu tədbirlər təqvimdə olan uşaq hüquqları

ilə bağlı, aqressiyaya məruz qalan uşaqlar günü ilə bağlı olub müxtəlif əsərlərin təhlili, zorakılığa məruz qalmış, hüquqları tapdalanmış uşaqlardan, müharibənin daha çox uşaqlara vurduğu zərbələrdən, psixoloji sarsıntılardan bəhs edən filmlərin nümayişi, bu haqda əsərlərin təhlili, sərgilər, yazı müsabiqələri və s. şəkilində olur. Bu əlamətdar günlər sırasında Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar günü də yer alır. Bu gün ona görə təsis edilmişdir ki, bəzi böyüklər öz məkrli oyunlarının, bitib-tükənməyən təmənnalarının qurbanlarına uşaqları çevirirlər. Uşaqlar ömürlərinin sevgiyə, qayğıya daha çox ehtiyac duyduqları çağlarında müharibə adlı fəlakətlərlə üzləşir, sevincləri, gülüşləri əllərindən alınırlar. Buna görə də müxtəlif ölkələrdə hər il minlərlə uşaq müharibələrin qurbanı olur, minaya düşərək həyatını və ya sağlamlıqlarını itirirlər.

Bu cür aqressiv davranışların qurbanı olan uşaqları düşünərək 1982-ci il avqustun 19-da BMT-nin Baş Assambleyası özünün Fələstin məsələsi üzrə xüsusi sessiyasında ES-7/8 nömrəli qətnaməsi ilə hər il iyunun 4-nü Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günü (İnternational Day of İnnocent Children Victims of Aggression) kimi qeyd etməyi qərara almışdır. Birləşmiş Millətlər Təşkilatı ona görə bu günü təsis etmişdir ki, müharibələrdə yalnız əsgərlərin deyil, uşaqların da həlak olduğu unudulmasın. Çünki, daha çox hərbi münaqişələr zonasında yaşayan uşaqlar aqressiv münasibətlərə məruz qaldığından bütün dünyada münaqişələr zamanı nə qədər uşağın həlak olması haqqında dəqiq statistika bilinmir.

Bu gün ona görə təqvimə salınmışdır ki, dünyanın fiziki zorakılığa, mənəvi-psixoloji və ruhi təsirə məruz qalan bütün uşaqlarının ağrılarını və əzablarını başqaları da duysunlar, hiss etsinlər.Azərbaycanda da uşaqlar zamanla düşmənlərimizin terrorlarının qurbanına cevrilmişlər.




Bütün dünya 1992-ci il 26 fevral tarixində Ermənistan silahlı qüvvələri tərəfindən törədilmiş *“Xocalı faciəsi”*də Ermənistan təxribatı tərəfindən 2 yaşlı Zəhra Quliyevanın öldürülməsi hadisəsində, 44 günlük Vətən müharibəsi boyunca münaqişə zonasından kənarda Azərbaycanın Naftalan, Ağcabədi, Gəncə və Bərdə şəhər və rayonlarında mülki əhaliyə qarşı ermənilərin terror hücumlarının yaxından şahidi olmuşlar. 44 günlük Vətən müharibəsindəki terror hadisələri nəticəsində 12 uşağın həyatını itirməsi, 50 uşağın isə xəsarət alması işğalçı Ermənistan Silahlı Qüvvələrinin əsl simasını bir daha ortaya qoymuşdur. 44 günlük Vətən müharibəsi dövründə biz ermənilərin uşaqlara qarşı vəhşi simasını bir daha görmüş olduq. Atılan raketlərin qurbanı olan uşaqların yoxluğu onların sinif yoldaşlarına, yaşıdlarına çox pis təsir edirdi. Əraziyə atılmış ballistik raket nəticəsində alova bürünmüş ətraf həmin anlarda uşaqlar üçün daha qorxunc mənzərəyə çevrilmişdir. Buda onların psixoloji travma almasına gətirmişdir.

Əziz oxucular, bizlər də uşaqlara necə yararlı ola bilmək, onların üzündə necə təbəssüm yaratmaq, onlara elmin, oxumağın, mütaliənin nə qədər lazım olduğunu çatdırmaq məqsədi ilə bu vəsaiti sizlərə təqdim edirik. Qələmə aldığımız bu metodik vəsaitdə aqressiyadan, zorakılıqdan əziyyət çəkən uşaqlara münasibətin nüansları açıqlanır.

**Keçiriləcək tədbirlər:**

Kitabxanada 4 iyun aqressiya qurbanı olan uşaqlar günü ərəfəsində *"Uşaqlara sevgi ilə yanaşaq", "Uşaqların həyatında aqressiyaya son"* başlıqlı uşaq aylığı keçirə bilərik. Uşaq aylığı çərçivəsində uşaq hüquqları, Aqressiya və uşaqlar mövzusunda, maarifləndirici tədbir, dəyirmi masa, seminar, müsabiqə və sərgilər də maraqlı olar.

**Kitab sərgisi:**


















**Kitab icmalı:**

Uşaqların müdafiəsi üçün mühüm təminatlar verən 1925-ci il Cenevrə protokoluna və 1949-cu il Cenevrə konvensiyalarına, insan hüquqlarına hörmət edilməsinə aid digər beynəlxalq hüquq aktlarına əsasən hər bir dövlət müvafiq öhdəliklərini tam yerinə yetirməlidir. Müharibə edən tərəflərin hərbi əməliyyatlar zamanı uşaqlara qarşı törətdikləri bütün repressiya və qəddarlıq, insanlıqdan kənar davranış formaları cinayətkar hərəkətlər sayılır. Uşaq Hüquqları Konvensiyasının 25-ci maddəsinə əsasən dağıdıcı müharibələr, səbəbindən valideyn himayəsindən məhrum olmuş, baxılmaq, müdafiə və ya müalicə edilmək məqsədi ilə dövlət tərəfindən qəyyumluğa, himayəçiliyə verilmiş uşaqların qəyyumluğunun və himçayəçiliyin mütəmadi yoxlanılması lazımdır. Konvensiyanın 37-ci maddəsində isə qeyd edilir ki "Heç bir uşaq işgəncələrə, amansız rəftara, və cəzaya, qanunsuz həbsə və ya azadlıqdan məhrum edilmə cəzalarına məruz qalmamalıdır. Uşaqlara qarşı pis rəftar hallarına heç vaxt haqq qazandırmaq olmaz, yalnız belə halların baş verdiyi və ya baş verə biləcəyi zaman onların qarşısı alınmalıdır."

Uşaq hüquqları üzrə pilləli tədrislə bağlı seçilmiş mövzular : Azərbaycan Respublikası Təhsil Nazirliyinin 5 noyabr 2009-cu il tarixli 1231 saylı əmri ilə dərs vəsaiti kimi təsdiq edilmişdir / Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombusman) ; tərt.ed. R. Rumzadə ; red. E. T. Süleymanova ; rəy. Ə. İ. Əliyev. - Bakı :, 2009. - 288 s.

Kitabxanada uşaqların müdafiəsi üçün onların daha çox məlumatlı olması, öz hüquqlarını daha yaxşı bilmələri üçün *"Uşaq Hüquqlarının Pilləli Tədrisi"* kitabınının icmalını keçirə bilərik. Çünki, hüquqlarını öyrənmək insana hava, su, qida kimi olduqca vacibdir. Bir insan hüquqlarını öyrənərsə, özünü hüquqi cəhətdən bilikli hesab edər. Bütün imkanlarından həyatda daha asan və səmərəli istifadə edər.

Ona görə də hər birimiz hüquqlarımızı  lazımınca bilməliyik. Bir mədəniyyət müəssisəsi olaraq həmişə F.Köçərli adına Respublika Uşaq Kitabxanasında da oxucularla bu haqda müxtəlif tədbirlər həyata keçirilir. Hüquq və azadlıqları haqqında məlumatlar gələcək nəslə kitablar vasitəsi ilə çatdırılır. Yaşımızın üstünə yaş gəldikcə, yəni biz bir yaş böyüdükcə hüquqlarımızın da sayı artır. Biz hər yaş dövrümüzdə istifadə etməli olduğumuz hüquqlarımızın da sayı artır. Hər birimiz öz hüquqlarımızı düzgün bilmiş olsaq heç zaman kimsədə bizə gələcəkdə irad tuta bilməz. Heç zaman aqressiv münasibətin qurbanına çevrilmərik. İstəmərik ki, başqasınada kobud münasibət, aqressiv davranış göstərək.




Geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuş bu vəsait uşaq hüquqlarının öyrənilməsi üçün dəyərli vəsaitdir. Vəsaitdə həmçinin Azərbaycan Respublikasının Konustitusiyası, digər milli qanunvericilik aktları, həmçinin BMT-nin Uşaq hüquqları haqqında Konvensiyası, eləcədə müxtəlif beynəlxalq sənədlər, yerli və xarici materiallardan istifadə edilmişdir.  Kitabxanada bu kitabın təbliğ edilməsidə məqsədəuyğundur.  Geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş bu kitabın pdf variantı virtual şəkildə istifadə edilməsi üçün aşağıdakı linkdə verilmişdir.
https://drive.google.com/file/d/1ihcd0rczemhBjP_XKKPeHOMKu9z4uPk4/view

Kitabda uşaqlarla hüquqlarını bilməsi üçün müxtəlif oyunlar, şəkillər təqdim edilmişdir. *Xəritə oyunu, Gündəlik hüquqlarım oyunu, Mənim hüquqlarım və vəzifələrim* və s.




Dünya ictimaiyyətində münaqişələr və terrordan zərər çəkən uşaqların günü kimi qeyd edilən bu günlə bağlı müharibələr və onların uşaqlara vurduğu zərərlərlə bağlı bu mövzuda yazılmış əsərlər, ktabların təqdimatı, filmlərin nümayişini keçirə bilərik. Zəfər yolunda 44 gün" kitabının oxuculara təbliği oxucular üçün məqsədəuyğundur. F. Köçərli adına Respublika Uşaq Kitabxanasında 2022-ci ildə bu kitabın təqdimatı keçirilmişdir. Kitabın müəllifi yazar, Azərbaycan Jurnalistlər Birliyinin üzvi Əziz Sultandır. Kitabın təbliğinin məqsədi odur ki, döyüşkən ruhlu vətən oğullarının və ümumiyyətlə xalqın birliyi, mərdliyi, şücaəti və fədakarlığının daha çox xalqa vacibli anlaşılsın. Çünki Vətən yolunda tökülən hər damla qan, hər damcı tər müqəddəsdir. Odur ki, istər döyüş meydanında, istərsə də arxa cəbhədə yaşanan belə tarixi anları gələcək nəsillərə ötürmək Ana Vətənə qarşı vəfa borcumuzdur. Müharibə mövzusunda yazılan kitablrın təbliği həmdə onun üçündür ki, hər birimiz zorakılığa məruz qalmış, aqressiya görmüş, hüquqları pozulmuş uşaqlarla mehriban davranmağı bacaraq. F. Köçərli adına Respublika Uşaq Kitabxanası **Jest dilinə tərcümə edilən "Uşaq Hüquqları Konvensiyası" əsasında hazırlanmış elektron kitabı** oxucuların istifadəsinə vermişdir.

[https://clb.az/haqqimizda/mehdudiyyetli-ushaqlar-uchun/esitm-v-nitq-m-hdudiyy-tli/jest-dilin-t-rcum-edil-n-usaq-huquqlari-konvensiyasi-sasinda-hazirlanmis-elektron-kitab](https://clb.az/haqqimizda/mehdudiyyetli-ushaqlar-uchun/esitm-v-nitq-m-hdudiyy-tli/jest-dilin-t-rcum-edil-n-usaq-huquqlari-konvensiyasi-sasinda-hazirlanmis-elektron-kitab)




**Uşaq hüquqları hamı üçün: Uşaqları dinləyək, onların iştirakını təmin edək! : 20 noyabr 1989-cu ildə qəbul edilmiş BMT-nin "Uşaq Hüquqları haqqında Konvensiyası" nın "20 illiyi" nə və Azərbaycan Respublikasında "Uşaq ilinə" həsr olunur, Bakı :, 2009. - 128 s.**

Hazırlanmış bu vəsaitdə Azərbaycan Respublikasının Konstitusiyasının və digər qanunvericilik aktlarında, həmçinin BMT–nin Uşaq Hüquqları haqqında Konvensiyasında təsbit olunmuş uşaq hüquqlarına dair seçilmiş müddəalar izahlı şəkildə öz əksini tapmışdır. 128 səhifəlik vəsaitdə uşaqların hüquqları haqqında sərəncamlar, hüquqların şəkilli izahı verilmişdir. Sonda isə istifadə edilmiş ədəbiyyat siyahısı verilmişdir. Öz hüquqlarını bilməsi üçün bu kitab dəyərli vəsaitdir. Kitabdan oxucuların mütaliəsi üçün kitabın pdf forması clb.az. saytında verilmişdir.
https://drive.google.com/file/d/1zbVWYJ73tmIa4nsZnx8Fsfu-dwZpYyNM/view

**Kitab haqqında:**




Reyhan Yusifqızının “Yaşıl Gözlü Qız” kitabı Müəllifin elmi-fantastika janrında yazılmış birinci kitabıdır. 2009-cu ildə Ankarada (Türkiyə) beynəlxaılq müsabiqədə üçüncü mükafata layiq görülmüş kitab kosmik qəza nəticəsində Yer planetinə düşmüş 12 yaşlı yadplanetli qızın – Leminin sərgüzəştlərindən bəhs edir. Yadplanetli qız tezliklə Yerdə özünə dostlar və düşmənlər qazanan əsərin qəhrəmanları – məktəblilər Lemiyə kömək edir, Kainatın sirlərini açmağa, başqa sivilizasiyalardan bizim fərqimizi başa düşməyə çalışırlar. Ulduz müharibələrinin qarşısını almaq, Yerin ekologiyasını məhv olmaqdan xilas etmək üçün yollar fikirləşirlər. Lemi uşaqların köməyilə öz planetinə qayıtmağa çalışır. Olduqca bilgiverici olan bu əsər təbiət, kainat, astronomiyaya aid məlumatlarla zəngin bir əsərdir. Əsər uşaqlara kömək etmək, sevgi ilə yanaşmağı bacarmağı təbliğ etmək baxımından məqsədəuyğundur.




Viktor Hüqonun “Səfillər” əsərinin motivləri əsasında hazırlanmış “Qovroş” hekayəsi. On doqquzuncu əsrdə hazırlanmış əsər ilk vaxtlar varlı ailələrin övladları üçün nəzərdə tutulmuşdur. “Qavroş” bütün dövrlərin ən çox oxunulan əlavələrindəndir. Rus kinomatoqrafları tərəfindən eyni adlı bədii və cizgi filmləri də çəkilib. Öz əsərlərində xalq arasından çıxan, hədsiz ağrı-acıya, haqsızlağa məruz qalan insanları canlandıran dahi Hüqonun möhtəşəm qəhrəmanlarından biri olan Qavroş, yaşadığı çətinliklərə baxmayaraq gülərüz, kobud olduğu qədər də bacarıqlı, fərasətli və cəsur bir oğlandır. Paris küçələrində müharibələrdə səfil həyat sürən bu on iki yaşlı oğlan 1832-ci ildə baş verən Paris iğtişaşlarında həlak olur. Əsər yeniyetməyə qarşı cinayətkarlığın tamahkarlığın, sosial və mənəvi dibin ədəbi simvoludur. Oxucular kitabın pdf variantının linki ilə kitabxananın clb.az saytında tanış ola bilərlər.

https://drive.google.com/file/d/1oxT232eBwUPPLjNwvDaG69TzVvWdcGkA/view

Uşaqlara bu əsər əsasında çəkilmiş filmin nümayişini də təqdim etmək olar.

https://www.youtube.com/watch?v=tvQDLy4WJLY

*Əsər əsasında kitabxanada düzəldilmiş balaca səhnəcik də uşaqlar üçün maraqlı olar:*

Soyuq aprel axşamlarından birində Qavroş adamlarla dolu bir küçədə, böyük bir dəllək dükanı qarşısında soyuqdan büzüşərək dayanmışdı. Onun boynunda hardansa əldə etdiyi bir şal yaylıq var idi. Qavroş özündən balaca iki uşağın dəllək dükanına girdiyini gördü. Bunlardan birinin yeddi, o birinin

isə beş yaşı olardı. Onların geyimləri çox köhnə idi, nə istədiklərini ayırd etmək olmurdu. İkisi də birdən danışırdı. Kiçik hey ağlayırdı, böyüyünün isə soyuqdan dişləri bir-birinə dəyib şaqqıldayırdı. Dəllək acıqlı-acıqlı onlara tərəf çevrildi, sözlərinə qulaq asmayaraq, uşaqları itələyib küçəyə saldı və dallarınca dedi:
– Boş-boş veyillənib, içərini də soyudurlar!
Uşaqlar ağlaya-ağlaya yollarına davam etdilər. Bu vaxt göyün üzünü qara buludlar örtdü və yağış səpələməyə başladı. Qavroş özünü onlara yetirib soruşdu:
– Ay uşaqlar, niyə ağlayırsınız?
– Gecə yatmağa yerimiz yoxdur, – deyə böyük uşaq cavab verdi.
Qavroş dedi:
– Eh, elə bu? Heç adam da belə boş şey üçün ağlar? Ay sizi, səfehlər!
Qavroş onların qayğısına qalan bir adam kimi mehribancasına əlavə etdi:
– Balaca cırtdanlar, dalımca gəlin!
Uşaqlar ağlamaqlarını kəsib, inamla Qavroşun arxasınca getdilər. Gedə-gedə Qavroş dəllək dükanına baxdı: “Daşürəkli heyvan! Zəhər tuluğu!” – deyə mızıldandı və dəlləyi hədələdi.
Bir darvazanın yanından keçəndə, soyuqdan titrəyən, on üç-on dörd yaşlı dilənçi bir qız gördü.
–Yazıq tamam çılpaqdır. Al, götür! – deyə o, boynundakı yun yaylığı açıb, dilənçi qızın arıq çiyinlərinə saldı.
Qız təəccüblə ona baxdı və dinməzcə hədiyyəni qəbul etdi. Qavroş isə soyuqdan daha çox büzüşdü. Elə bu zaman yağış yenə də səpələməyə başladı.
Bu parçada oxucular bütün ağrı-acısna, yoxsulluğuna baxmayaraq balaca Qvroşun mərhəmətli, daxilən zəngin

davranışı çox təsiredicidir. Sonda uşaqlarla Qavroşu necə tanıdınız?, *Nə üçün yaylığını balaca qızcığaza verdi?, Qavroşun mərhəmətini nədə gördünüz* və b.
Suallar ətrafında viktorina təşkil edə bilərik.
Biz özümüz həyatda gördüklərimizdən, oxuduğumuz əsərlərdən, baxdığımız filmlərdən bu qənaətə gəlirik ki, özümüzü nə qədər böyük hesab etsək də, hər birimizin qəlbinin dərinliklərində bir uşaqlığımız yatır və o uşağı oyada bilsək heç zaman uşaqların aqressiya qurbanına çevrilməsinə razı olmarıq. Bunun üçün çox şey edə bilərik ki, bizim kiçik saydığımız şeylər körpələrin bir təbəssümünə səbəb ola bilər. Düşünürəm ki, hər kəs əlindən gələni etsə, yardıma, köməyə ehtiyacı olan, bizim hər sözümüzdə "uşaqlar bizim gələcəyimizdir" dediyimiz körpələri pisliklərdən uzaq tuta bilərik.
Uşaq hüquqları Konvensiyasına görə hər bir uşaq yaşamaq üçün ayrılmaz hüquqa malik olduğuna görə dövlət uşağın sağ qalmasını və inkişafını təmin etməsinə borcludur. Konstitusiyamızda hər kəsin yaşamaq hüququ olduğunu bəyan edərək, ölkəmiz ümumbəşəri dəyərlərə sadiq olaraq dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə uşaqların qarşılıqlı fəaliyyət göstərmək hüququna təminat verir. Uşaqlarla bağlı Konvensiya və qərarlara əsasən Uşaq Hüquqları Haqqında Konvensiyanın iştirakçısı olan dövlətlər uşaqların qorunması ilə tanınan hüquqların həyata keçirilməsi üçün bütün qanunvericilik tədbirlərini görürlər. Uşaq hüquqları Konvensiyasına qoşulan dövlətlər təsdiq edirlər ki, hər bir uşaq yaşamaq üçün ayrılmaz hüquqa malikdir. Hər bir dövlət uşağın sağ-sağlam inkişaf etdirməsi gücünə malik olmalıdır.
Bunun bariz nümunəsi hər il qeyd edilən uşaqlarla bağlı tədbirlərdir. Mədəniyyət müəssisəsi olan F.Köçərli adına

Kitabxanadada bu mövzu ilə bağlı müxtəlif tədbirlər keçirilir. BMT-nin Uşaq Hüquqları Konvensiyasının qəbul edilməsi ərəfəsində 20 oktyabr – 20 noyabr tarixlərində kitabxanada “Uşaqlara sevgi verək”, “Hər bir uşağın qayğısına qalaq!”, “Hüquqlarım və mən” başlığı ilə müxtəlif tədbirlər keçirilməsinə üstünlük verilir. Aylıq çərçivəsində Azərbaycanın şəhər və rayonlarında uşaq hüquqlarının təbliğinə xidmət edən dəyirmi masalar, treninqseminarlar keçiriləcək, orta ümumtəhsil məktəblərində, uşaq müəssisələrində maarifləndirmə tədbirləri, müsabiqələr və sərgilər təşkil olunur. Kitabxanamızda da bu işlə əlaqədar bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Kitabxanada “uşaq hüquqları həftəsi” keçirilməsi məqsədəuyğundur. Həftə ərzində uşaqları konvensiyada nəzərdə tutulmuş hüquq və vəzifələr ilə tanış etməklə, bu sahədə onları daha çox məlumatlandırmış olarıq. Oxuculara hüquqlarından bəhs edən bukletlər hazırlayıb, paylanması isə əyani vəsait kimi təbliğat işində yardımçı olar. Həmçinin uşaqların ədəbiyyata, mütaliəyə marağını artırmaq üçün ədəbiyyatımızda hüquqları pozulmuş uşaqların həyatından bəhs edən əsərlərin icmalını keçirə bilərik.

*Süleyman Sani Axundovun “Qaraca qız”, Tağı Şahbazi, Simurqun “Qayçı” hekayələri, müasir yazıçılardan Sevinc Nuruqızının “Qisas” kitabı Reyhan Yusifqızının “Yaşıl gözlü qız kitabı, Viktor Hüqonun “Səfillər”* əsərlərinin icmalını verə bilərik. Bu əsərlər müxtəlif dövrlərdə yazılsa da sujetlərində eynilik görürük. Qayçı hekayəsində atası tərəfindən kobud rəftar olunan Məmməd obrazı, “Qaraca Qız” dakı Qaraca qızın acı taleyi uşaqların ailədə hüquq pozuntularına mükəmməl nümunədir. Küçə həyatı yaşayan Qavroşun həyat tərzi ümumbəşəri fəlakət sayılan müharibənin acısının tərənnümüdür.

**Qisas kitabının onlayn müzakirəsi:**

Kitabxanada "Qisas" kitabının onlayn müzakirəsini və müəlliflə görüşünü təşkil edə bilərik. Müəllifin kitab haqqında fikirlərinə görə "Qisas" povesti onun böyüklərə müraciətidir. Bir uşaq yazıçısı kimi müharibənin uşaq taleyinə vurduğu zərbələrin nə qədər ağrılı olduğunu təkcə Azərbaycan adlı məkanın deyil, bütün dünyanın böyüklərinə yaydığı bir mesajdır. Yazıçı bu əsərində hər birimizə bildirir ki, bu acı həqiqətləri bütün dünyaya çatdırmaq, unutmamaq hər birimizin müqəddəs borcudur. Onlayn görüşdə şagirdlər tərəfindən hazırlanmış *"Müharibə istəmirik"* adlı slayd təqdim edə, şeirlər səsləndirə bilərik.

- Şümşad nənə, ay Şümşad nənə!
  Cavab verən olmadı. Sərçə birdə çağırdı
- Şümşad nənə, ay Şümşad nənə!
  Hay gəlmədi. Sərçə yaxşı bilirdi ki, neçə dəfə çağırsada cavab almayacaq. Axı, çağırdığı qarı heç nə eşitmirdi.
  Üzü yuxarı boylandı, arıq ayaqlarını çürüyüb qaralmış taxta pilləkənlərə basa-basa yuxarı qalxdı. Artırmada beli bükülmüş balaca qarı oturmuşdu.
- Şümşad nənə mən gəldim.
- -Yaxşı elədin xanım bala. Gəl otur.
- Onu təkcə bu qarı öz adı ilə çağırardı.
- Qəşəng adın var. Xanım! Qoyma sənə Sərçə desinlər, deyərdi.
- Amma Sərçənin əlindən bir şey gəlməzdi ki. Çünki, çoxları onun əsl adını belə bilmirdilər.
- Eynən Şüşad nənə kimi bardaş qurub oturdu. Gözlərini qarının həvəngdəstədə nə isə döyən

qupquru, damarları çıxmış əlinə zillədi. Hardansa damcılar düşdü bu əllərin üstünə. Damcılar daşa dəymiş kimi çatladı. Ətrafa səpələndi. Sərçə gözlərini qarının qırışlarından susuz səhra kimi çatlayan sifətinə zillədi.

Ağlayırdı. Sərçə kədərləndi.

- Xanım sənə bir sözüm var.
- Nədir Şümşad nənə?
- Xanım balamsan özün bilirsən ki, qulaqlarım tamam batıb.
- Üzündə qırışlar yenidən parıldadı. Öz-özünə:
- "Gör kimə ağız açır". Gör ümidi nə qədər kəsilib ki..."
- Gözlərinin qabağında dəhşətli kadrlar keçdi. Çöllərə səpələnmiş qoca, uşaq meyitləri. Daşa dönmüş meyitlərin üzəridə ağlayan videooperator, Titrəyən kamera...
- Bu gün o erkəndən oyanmışdı. Hamı yuxuda idi. Sərçə isə qonşunun itinin səsinə oyanmışdı. Hamı yuxuda idi. Masanın altındakı çörək teştini çəkib, bir parça çörək kəsdi, aşağı yüyürdü. İt çörəyi göydə qapdı:
- Yazıq Bənövşəyə nə deyim. Heç olmasa bu heyvanı gedəndə zəncirdən açıb buraxmamışdır.
- İtə baxdı. Çörəyi yeyib qurtarmışdı. Yazıq-yazıq ona baxırdı. Sərçəyə elə gəldi ki, onun gözləri yaşarıb. Sonra öz özünə İtlər ağlayır sualını verdi.
- Eşitdiyi qəfil gurultudan qulaqları uğuldadıYerindəcə dondu. Qonşu evin divarı gurultu ilə çökdü.
- Anası hazır qoyduğu bağlamanı maşına atdı...Əsərin davamı ilə kitabxananın clb.az saytında verilmiş linkində tanış ola bilərsiniz.

https://drive.google.com/file/d/1jj-XTwSv3OaOVGrO-HZXXbRBg1nSTsA2/view

Uşaqların aqressiya qurbanı olmasını, erməni təcavüzünə məruz qalmasını biz Xocalı faciəsində aydın şahidi olduq. Bunu uşaqların ifasında dinləyək.

**I oxucu:** - Xocalıdan səs gəldi:
"Kömək edin, amandı!"
Güllələrin səsindən
Ot tutdu, aləm yandı.
Tənha qaldı Xocalı,
Kömək edən olmadı.
Dağıldı şəhər bütün,
Ondan əsər qalmadı.

**II oxucu:** -Erməni-rus ordusu
Basqın etdi qəflətən.
Qadın, qoca, uşağı
Qətlə yetdi qəflətən.
Bələkdəki körpələr
Süngülərə taxıldı.
Günahsız insan qanı
Su yerinə axırdı.

**I oxucu:** - Adamların qanıyla
Yuyuldu ana torpaq.
İşgəncələr verildi
O gün xalqıma,Allah!
Güllələndi millətim,
Tapdalandı qeyrətim
Xocalıda o gecə.

**II oxucu:** - Dünya niyə susubdur,
Məgər görməyir bunu?
Müdafiə edirlər

Erməni quldurunu.
Susduracam od qoxan
Cingiltili səsini.
Qulağını aç, eşit,
Koroğlu nərəsini

Uşaqlar müdafiə, böhtan və şərdən müdafiə olunmaq hüququna malikdirlər. Bir kəsə məxsus məlumatların yayılması, şəxsi işinə və şəxsi həyatına müdaxilə qanunvericiliklə qadağan olunur.

Bu maddədəni uşaqlara izah etməklə onlar öyrənir ki, ailədə, cəmiyyətdə düzgün tərbiyə, böyüklərin, yaşlıların yaxşı nümunəsi yeniyetməni güclü, mənəvi cəhətdən möhkəm, xeyirxah edir. Pis tərbiyə, böyüklərin pis nümunəsi isə yetkinlik yaşına çatmayanlarda mənfi hisslərin yaranmasına səbəb olur. Yetkinlik yaşına çatmayanların tərbiyəsi cəmiyyətin əsas vəzifələrindəndir. Müasir dövrdə bu işdə kitabxanaçı əməyini də qeyd etmək yerinə düşər. Ümumiyyətlə, yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığa qarşı mübarizə məqsədilə keçirilən tədbirlərdə N. Tusinin *"Əxlaqi-Nasir"* kitabı əsasında söhbətlərin, oxucu konfranslarının, müzakirələrin keçirilməsi yerinə düşərdi. Kitabxanada bu əsərin videoçarxını da təqdim etmək olar.
https://www.youtube.com/watch?v=IhTiuzYgfio

Görkəmli Azərbaycan alimi, şair və yazıçısı, dövlət xadimi Xacə Nəsirəddin Tusinin "Əxlaqi-Nasiri" (Nasirin əxlaqa aid kitabı) əsəri Orta və Yaxın Şərq məktəblərində əsrlər boyu əxlaq dərsliyi kimi şöhrət qazanmışdır. Özündən əvvəlki etik-fəlsəfi fikirlərə yekun vuran "Əxlaqi-Nasiri" də müəllifin insan, ailə, cəmiyyət, əxlaq, din, ictimai münasibətlər ilə bağlı görüşləri öz əksini tapmışdır.

Əsrlər boyu Orta və Yaxın Şərqdə mənəviyyat və əxlaq qaynağı hesab olunan "Əxlaqi-Nasiri" kitabında Nəsirəddin

Tusinin insan, ailə, cəmiyyət, əxlaq, din, ictimai münasibətlər yer alır.




**Tusi X. N. Əxlaqi-Nasiri . - Bakı : Kitab klubu, 2016. - 336 s.**

Kitabda etik-fəlsəfi fikirləri yer alıb. Kitab müasir cəmiyyət həyatında aktuallığını itirməyən mövzulara diqqət çəkmək baxımından oxucular üçün müstəsna əhəmiyyət daşıyır.

Aqressiv münasibət hesab edilən uşaq və yeniyetmələrə yönəlmiş zorakılıq hallarının qarşısının alınması məqsədilə kitabxanalarla yanaşı mətbuat, radio və televiziyalar da, təbliğat işləri ilə məşğul olmalıdır. Çünki bu problem elə bir dəhşətli problemdir ki, ona qarşı mübarizədə bütün vasitələrdən istifadə etməliyik. Xüsusən azyaşlıları və yetkinlik yaşına çatmayan uşaqlara kömək məqsədilə bu işi daha da gücləndirməliyik. Hər bir məktəblidə milli mənlik şüurunun formalaşdırılmasını onun cəmiyyətdə, ictimai münasibətlərin bütün sistemində tutduğu və oynadığı rolunu müəyyənləşdirmək üçün fərdi yanaşmalıyıq , onun mənəvi keyfiyyətlərinin qabarıq ifadə etməsinə imkan verməliyik.

Hər birimiz vətən, xalq, millət kimi böyük arzular və müqəddəs amallar üçün çalışmalıyıq. Milli şüur formalaşdıqca məktəblidə milli ləyaqət tərbiyə olunmalıdır. Böyüməkdə olan nəslin milli şüurunun və milli ləyaqətinin tərbiyə edilməsində, mədəniyyətimizin, tariximizin, ədəbiyyatımızın onlara düzgün öyrədilməsində kitabxanaçılarımızın, xüsusilə uşaq kitabxanalarının qarşısında mühüm vəzifələr dayanır.

Bu məqsədlə kitabxanaçılar məktəbli oxucuları dərsliklərdən kənara çıxararaq digər bədii nümunələrlə tanış etməli və onları həmin əsərləri oxuyub nəticə çıxarmağa istiqamətləndirməlidirlər. Məktəbli oxucuların həyatın fəal mübarizləri kimi pak və səmimi duyğularla Vətənə, xalqa bağlılıq ruhunda ləyaqətli vətəndaş kimi tərbiyə edilməsi üçün müəllimlərlə yanaşı kitabxanaçılar da tədbirlərdə dərs prosesini əlaqələndirməlidir. Aqressiya qurbanı olan uşaqları yada salmaq üçün kitabxanalarda da fotostend təşkil edə bilərik. Stendə aqressiya qurbanı olan uşaqların fotolarını yerləşdirə bilərik. Uşaqları gələcəkdə aqressiv münasibətlərin qurbanına çevirən pis vərdişlərdən narkomaniyadan və siqaretin qurbanına çevrilməsindən qorumaq üçün kitabxanada. *"Yaşamaq üçün sağlamlığımızı qoruyaq", "Həyatını məhv etmə", "Həyatını sev"* başlıqlı slayd hazırlamaq olar.




Kitabxanada keçirdiyimiz bu tədbirlərdə məqsəd, dövlətin qiymətli sərvəti, cəmiyyətin həssas üzvü, xüsusi müdafiəyə ehtiyacı olan uşaqların hüquqlarının qorunmasıdır. Onlarla münasibətdə aqressiyanın törətdiyi fəsadlar haqqında söhbətlərin, müzakirələrin psixoloqlar tərəfindən aparılmasında lazım olan məlumatlarla tanış olmaq olar. Belə tədbirlərin keçirilməsində məqsədimiz uşaqlara sevgi dolu, qayğı dolu münasibətin təbliğdir.

Ölkəmiz son illərdə İkinci Qarabağ Müharibəsinin fəsadları ilə üzləşmişdir. Məlumdur ki, ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Ordumuz işğalda olan əzəli Azərbaycan torpaqlarını azad etmiş, 44

günlük Vətən Müharibəsində zəfər çalmışdır. Bu müharibə dövründə Ermənistan tərəfinin Azərbaycanın mülki yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutması nəticəsində 10-dan çox uşaq həlak olmuş, 50-si yaralanmış, bir çox uşaq isə valideynlərini itirmişdir. Habelə, mülki obyektlərin hədəfə alınması, bir çox yaşayış evlərinin, təhsil, səhiyyə müəssisələrinin dağıdılması uşaqların təhsil, səhiyyə və digər hüquqlarının pozulmasına gətirib çıxarmışdır**.** Bununla yanaşı atılan intensiv atəşlər uşaqların psixoloji sarsıntı keçirməsinə səbəb olmuşdur. Uşaqlar müharibələrin nəticələrindən hərtərəfli sarsıntılar aldığı üçün hərbi münaqişələr zamanı heç bir halda onlar hədəf obyektinə çevrilməməli və müharibənin fəsadlarından əziyyət çəkməməlidirlər!

**Rəsm sərgisi:**
*Kitabxanada müharibə və uşaqlar"* adlı rəsm sərgisi təşkil edə bilərik. Sərgidə uşaqlar müharibə mövzusunda çəkdikləri rəsmlər nümayiş etdirirlər. Sərginin təşkili onu göstərir ki, lap erkən yaşlarından qəddarlıqla üzləşən uşaqların, müharibənin, zorakılığın qurbanına çevrilməsi hər hansı mübahisənin həlli üçün üsul deyildir. Onlar sülh və təhlükəsizlik mesajını öz düşüncələri ilə əsərlərində çatdırırlar. Uşaqların aqressiya günü ilə bağlı keçirilən tədbirlər həftəsində kitabxanada Azərbaycan rəssamlıq sənətində ilk akademik rəsm üslubunda işləyən rəssam Bəhruz Kəngərlinin müharibə mövzusunda çəkdiyi 1918–1920-ci illərdə erməni daşnaklarının Azərbaycanda törətdikləri faciələri təsvir edən, öz dədə-baba torpaqlarından zorla qovulmuş və Naxçıvana pənah gətirmiş azərbaycanlı qaçqınların portretlərindən ibarət yaratdığı silsilə əsərlərin nümayişini keçirə bilərik. Bu silsilədən olan *"Qaçqınlar",*

*“Qaçqın qız”, “Qaçqın oğlan”, “Qaçqın qadın”, “Yurdsuz ailə”, “Qaçqın Gümşün”, “Ayaqyalın qaçqın oğlan”* və s. əsərlərin nümayişini keçirə bilərik. Müəllif tərəfindən işlənmiş onlarla qaçqının portretləri təkcə sənətkarlıq səviyyəsinə görə deyil, tarixi sənəd kimi də dəyərlidir. Burada rəssam təsvir etdiyi qaçqın uşaqların hər birinin simasında didərgin düşdükləri ata-baba ocaqlarının həsrətini, keçirdikləri hiss və həyəcanları, gözlərinə qonmuş qüssə və kədəri özünəməxsus ustalıqla əks etdirmişdir. *“Qaçqınlar”* silsiləsindən olan “Qaçqın oğlan” əsərləri ətrafında uşaqlarla söhbət təşkil edə bilərik. Silsiləyə daxil olan bu əsər məna baxımından çox təsirlidir.



Uşaq da meyvə tək yetişən olar,
Əsəbi bərkiyər, ət-qana dolar.
Elə ki, sümüklə dəri bərkiyər,
Qafada beyninin yeri bərkiyər.
O uşaq kamala can ata-ata,
Ağlına ağıllı söz bata-bata.
Təlim məktəbinə çapar atını,
Arzu şərbətinin duyar dadını.

**Nizami Gəncəvi**

Az təhqir görən uşaq, öz ləyaqətini dərindən dərk edən insan kimi yetişər.

**N.Q. Çernişevski**

Qocalar müharibə sala bilər, amma tarixi uşaqlar yazar.

**Rey Merrit**

Uşaqları sevən həyatı da sevər.

**Fyodor Dostoyevski**

Sağlam uşaqlar yetişdirmək, pozulmuş yetişkinləri düzəltməkdən daha asandır.

**Fyodor Dostoyevski**

**İntelektual oyun**

Bilirik ki, kitabxanalar uşaqları maarifləndirməklə yanaşı onların intellektual səviyyələrinin yüksəldilməsində də xüsusi rol oynayır. Bu səbəbdən də uşaqlara hüquqlarından bəhs edən oyunların keçirilməsi də məqsədəuyğundur. Bu təşəbbüs uşaqların inkişaf hüququna uyğun olaraq, fərdlər arasında irqindən, cinsindən, milli mənsubiyyətindən asılı olmayaraq, bütün uşaqların eyni hüquqa malik olmaları

haqqında uşaqlar məlumatlandırılır. Oyunu təşkil etmək üçün uşaqlardan ibarət komandalar yaradırıq. Onlarla başqa irqdən olan uşaqlarla bağlı söhbətlər edirik. Hər bir uşağın eyni hüquqa malik olduğunu danışırıq. Sonda uşaqların fikirlərini öyrənirik.

**Söhbət;**
Gənc oxucuların ifasında səhnəcik. Səhnəyə uşaqlar gəlir. Onlar hüquqları haqqında öz aralarında söhbətə başlayırlar.
– Uşaqlar, bilirsiniz dünyada təxminən 130 milyon məktəbyaşlı uşaq hələ də məktəbə gedə bilmir.
– 12 milyona yaxın uşaq hər il müxtəlif qarşısı alınmaz xəstəliklərdən ( malyariya, pnevmaniya,) əziyyət çəkir .
– On minlərlə uşaq istismara məruz qalır.
– Uşaqlar niyə belə əziyyət çəkirlər axı? Onlara belə laqeyidliyin səbəbi nədir görəsən?
– Bu uşaqlara necə kömək edə bilərik? Əsrlərlə davam edən müharibələr, onların törətdikləri fəsadlar. Bunun üçün uşaqların hər zaman müdafiəyə ehtiyacı vardır.
Axı müharibələr zaman-zaman təkrarlanır. Hər bir uşağınsa firavan həyat sürməyə haqqı vardır. Şən, qayğısız uşaqlıq illərindən onları məhrum etmək olmaz. Bunun üçün də uşaqların hər zaman müdafiəyə ehtiyacı vardır. Elə 1917-ci ildə başlayan I Dünya Müharibəsinin nəticəsi ictimaiyyəti uşaqların müdafiəsinə qalxmağa məcbur etdi. Buna görədə 1924-cü ildə Millətlər Cəmiyyəti 5 maddədən ibarət Uşaq Hüquqları Konvensiyasını qəbul etdi.
–II Dünya Müharibəsindən sonra daha çox müdafiəyə ehtiyac duyulurdu.
Ona görədə 1959-cu ildə bu sənəd rəsmi qəbul edildi.
– Elə dövlətimiz də 1989-cu ildən başlayan müharibədən sonra bu sənədə qoşuldu.

Biz bilirik ki, BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasına əsasən, uşağın yaşamaq, normal inkişafı üçün lazım olan həyat səviyyəsinə malik olmaq, öz fikrini sərbəst ifadə etmək, təhsil almaq, bir çox istismar üsullarından müdafiə olunmaq hüququ vardır. Lakin cəmiyyətdə müəyyən yaş qruplarında olan uşaqlar ədalətsizliklərlə qarşılaşır. Bu da onların təfəkküründə, yaddaşında aqressiv izlər buraxır. Hansı ki bu uşağın gələcək həyatına mənfi təsirini göstərir. İstər kiçik məktəb, istər yeniyetməlik, istərsə də gənclik dövründə şəxsin travmatik parçalarla həyatına davam etməsi isə çox çətin olur. Uşaq ikən travma görmüş uşaqların dərslərində geriləmə, fokuslana bilməmə, ünsiyyət problemləri yaşanır. Qruplararası münasibətlərdə bu uşaqlarda öz potensial bacarıqlarını ortaya qoya bilməmə probleminə səbəb olur. Bu da gələcəkdə psixi cəhətdən qüsurlu gənclərin yetişməsinə gətirib çıxarır. Bu kimi halların baş verməməsi üçün hər bir fərd şəxsiyyət kimi yetişməli, öz mənliyi, şəxsiyyətini dərk etməli, öz hüquqlarını bilməli, azad fikir, azad düşüncə aşılamalıdır. Bilavasitə şiddətə məruz qalan uşağın ailəsinə baxmaq, onlarla ayrı-ayrılıqda söhbət etmək mütləqdir. Bu işdə kitrabxanalarla yanaşı psixoloqlarda böyük rol oynayır. Zorakılığa məruz qalan uşaqların say nisbətində azalma müşahidə etmək məqsədilə cəmiyyətdə çoxlu işlərin görülməsi, mütəmadi psixoprofilaktik, maarifləndirici tədbirlərin həyata keçirilməsi müsbət nəticələrə gətirib çıxaracaq. Həm məktəbdə, həm də digər uşaq inkişaf mərkəzlərində maarifləndirici seminarların təşkil olunması, uşaqlarla, valideynlərlə söhbətlərin aparılması, videoçarxlar vasitəsilə zorakılığın müxtəlif formalarının sərgilənməsi maariflənmə yolunda atılan addımlardandır.

**DÜNYA, İNSANLIQ FACİƏNİ NECƏ QƏBUL EDİR?**

“Bütün müharibələrdə ilk əziyyət çəkən və ən çox əziyyət çəkən uşaqlar olurlar.” Dünyanın ayrı-ayrı ölkələrində müxtəlif siyasi səbəblərdən törədilən müharibələr uşaqların həyatına iztirablar gətirir.

Müxtəlif ölkələrdə hər il minlərlə uşaq minaya düşərək həyatını və ya sağlamlığını itirir. Dünyada 70-dən çox ölkədə 60 milyondan çox minanın basdırıldığı məlum olub. Onların da əsas qurbanları uşaq və yeniyetmələrdir.

44 günlük Qarabağ müharibəsi dövründə Gəncədə törədilən terror aktındada uşaqlar daha çox zorakılığa məruz qalmışdır. Gecə insanların evlərində yatdığı zaman raket atəşi nəticəsində dağılan yaşayış massivi və raket zərbəsindən məhv olmuş məhəllələrdə onlarla uşaq həyatını itirmiş, dağılan evlərin qalıqları  altında əllidən çoxu yaralanmışdır. Yatmış insanlara qarşı iyirmi birinci yüzillikdə törədilən terror insanlıq əleyhinə olan cinayətdir. Lənnətlənmiş erməni əməllərinin izi Azərbaycan tarixinin hər səhifəsindən görünür. Bunu silmək, yox etmək qeyri-mümkündür. Erməni silahlı bölmələrinin oktyabrın 17-də gecə saatlarında Gəncə şəhərini raket atəşinə tutması nəticəsində Şahnəzərovlar ailəsinin yaşadığı faciə yaddan çıxarmı? Dağıntılar altından ailənin yalnız bir üzvü - 2017-ci il təvəllüdlü Xədicə Şahnəzərova sağ çıxarıldı. Azyaşlı qızın atası Röyal, anası Züleyxa və yaşyarımlıq bacısı Məryəm isə erməni terrorunun qurbanları oldu. Dünya, insanlıq bu faciəni necə qəbul edə bilər? Azyaşlıya qıyan, onu yetim qoyan, insanları şikəst, kor edən, əlil edən, bir ailənin faciəsini qatili olan erməni. O erməni ki, 2017-ci ilin iyul ayının 4-də Füzuli rayonunun Alxanlı kəndində məskunlaşan mülki əhalinin yaşadığı yaşayış məntəqələrinin və mülki obyektlərin qəsdən 80 və

102 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutdu. Bu Ermənistan silahlı qüvvələri tərəfindən törədilən daha bir çirkin siyasətin nümunəsi oldu. Nəticədə, 1967-ci il təvəllüdlü yaşlı qadın Allahverdiyeva Sahibə və onun 2 yaşlı qız nəvəsi Quliyeva Zəhra həlak oldular, digər mülki şəxs - 1965-ci il təvəllüdlü qadın Quliyeva Səlminaz ağır yaralandı və mülki obyektlər dağıdıldı. Təbii ki, mülki şəxslərin münaqişələrdə hədəfə alınması qəbuledilməzdir. 2 yaşlı azərbaycanlı Zəhra Quliyevanın cəbhə xəttində Ermənistanın işğalçı qüvvələri tərəfindən qətlə yetirilməsi dözülməz idi. Bu, bir daha Ermənistan ordusu tərəfindən Azərbaycan ərazilərində törədilən təcavüz və təxribat faktlarını, onların iyrənc siyasətini ortaya qoymuş oldu. Bu, Ermənistan silahlı qüvvələri tərəfindən törədilən növbəti vandalizm aktıdır. Bu hadisənin təmas xəttinin beş kilometrliyində baş verdiyi, qanlı cinayətin müharibə qaydalarının pozulması ilə törədilən mülki əhalinin qətli aktı olduğu, hədəfə alınan Alxanlı kəndinin təmas xəttindəki hərbi mövqelərdən uzaq məsafədə yerləşməsinin düşmən qüvvələrinin mülki obyekti məqsədyönlü şəkildə seçməsi sübut edildi. Bütün bunlar dünya ictimaiyyətinə çatdırıldı və dünyanın gözü qarşısında ermənilərin təcavüzkar siyasəti bir daha ifşa edildi. Kitabxanadada onların bu terrorunun qurbanları haqqında uşaqlara danışılmalı, onları yad etmək lazımdır. Bunun üçün hazırladığımız slayd daha təsirli olar.

4 İyun – Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Gününün keçirilməsinin əsas məqsədi dünyanın fiziki zorakılığa, mənəvi-psixoloji və ruhi təsirə məruz qalan bütün uşaqlarının ağrılarını və əzablarını dünyaya çatdırmaqdır. Bu gün həm də BMT-nin həmin uşaqların qorunması haqqında məsələdə öhdəliklərini təsdiq edir.

Aqressiya insanlarda özünü müxtəlif formalarda göstərən haldır. Mahiyyətinin izahına gəlincə, aqressiya özü ilə rəftardan narazı olan adamın kobud davranışlarla etirazını büruzə verməsidir. Yəni sözlə yox, kobudluqla, hərəkət və səs reaksiyaları ilə cavabdır. Latınca “aggressio” sözündən yaranıb və mənası hücüm deməkdir. Aqressiya başqa şəxsə (fiziki və mənəvi) zərər verə bilən hirs emosiyasını ifadə edən ən fəal formalarından biridir. Aqressiv davranış, məqsədə gedən yolda maneələr yarandıqda və ya maraqların pozulduğu zaman başqaları tərəfindən yaradılan vəziyyətə mənfi reaksiyadır. Uşaqların aqressivliyi valideynlərlə yanaşı cəmiyyət üçün ən ağır imtahanlardan biridir. Uşaqlar çox vaxt öz aqressivliklərinin öhdəsindən gələ bilmirlər və böyüdükdə aqressiv davranışlarına nəzarət onlar üçün problem olaraq qalır. Aqressiya gizli və ya əksinə açıq şəkildə özünü göstərə bilər. Aqressiya problemi yaşayan uşaqlar xoşlarına gəlməyən və etirazlarına səbəb olan məsələ barədə danışıb, onu etiraf etməzlər. Çünki onlar bu qənaətdədirlər ki, onsuz da mənə əhəmiyyət verilmir. Bəzən məktəbdə, bəzən ev mühitində aqressiv davranışlarla qarşılaşdığımız uşaqlarda aqressiya aqressiv davranışlarla müşahidə olunan uşaqlar kimisə incidir, kimisə vururlar yaşıdları ilə pis davranır, valideynlərinin sözünü eşitmirlər. Bunun səbəbi odur ki, uşaqlar özləri cəmiyyətdə aqressiv davranışlarla qarşılaşırlar. Belə uşaqlar aqressiya qurbanı olan uşaqlardırlar. Sizə tövsiyə etdiyimiz bu metodik vəsait hər bir ailəni, cəmiyyəti uşaqlara aqressiya yox sevgi ilə böyütməyə səsləməkdir. Hər bir uşaqdan istirahət və asudə istifadə etmək hüququ vardır. Uşaq öz maraqlarına uyğun olaraq məktəbdənkənar istirahət və məşğuliyyətdən asılı olmayaraq müstəqildir.

## 4 İyun – Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günüdür

Hər bir uşağın müdafiə olunmaq yaşamaq, təhsil almaq hüquqları var. UNICEF ədliyyə, sosial xidmətlər və zorakılıqdan müdafiə tədbirlərinin əlçatanlığına diqqət yetirməklə uşaqları və onların ailələrini qorumaq üçün uşaqların müdafiə sistemlərini hər sahədə gücləndirir. Bu təşkilat UNICEF 190-dan çox ölkədə və ərazidə uşaqların həyatını xilas etmək, hüquqlarını müdafiə etmək və erkən uşaqlıqdan yeniyetməlik dövrünə kimi öz potensiallarını həyata keçirməyə kömək etmək üçün fəaliyyət göstərir. UNICEF-in hər yerdə, hər uşaq üçün işini kəşf edin.UNICEF Azərbaycanda, xüsusilə inteqrasiyalı sosial xidmətlər, ədliyyəyə çıxış və uşaq hüquqlarının monitorinqi sahələrində uşaqların milli müdafiə sistemlərinin gücləndirilməsi istiqamətində iş aparır. Uşaqların milli müdafiə sistemləri sosial rifah, təhsil və səhiyyə məsələləri ilə məşğul olan təşkilatlardan, habelə risk vəziyyətində olan uaqlarla bağlı cavab tədbirlərinə məsuliyyət daşıyan hüquq-mühafizə orqanları və strukturlarından ibarətdir. Güclü uşaq müdafiəsi sistemi adətən uşaqların və onların ailələrinin üzləşdiyi çoxsaylı qarşılıqlı çətinliklərin öhdəsindən gəlmək iqtidarındadır.  Aqressiv davranışı insan psixikasının hər hansı konkret sferası ilə bağlamaq daha böyük çətinliklərlə rastlaşır. Bəzən aqressiya emosional sferanın məhsulu kimi nəzərdən keçirilir. Burada ön planda nifrət və qəzəb kimi emosional hallar durur. Bu isə cəfəng görünür. Aqressiyanı motiv ilə əlaqələndirmək cəhdləri də inandırıcı görünmür. Məsələn, valideynlərin uşağını hər hansı bir dəcəlliyinə görə tənbeh etməsini kimsə aqressiya adlandıra bilməz. Halbuki burada qəsdən zərər yetirmək motivi şübhəsizdir. Ən

nəhayət, aqressiyanın koqnitiv proses nöqteyi – nəzərindən qiymətləndirmək də həmişə mümkün olmur. Bir çox hallarda aqressiya xoşməram, müsbət münasibət bəslənilən yaxın adamlara qarşı yönəlmiş olur. Uşaqlar niyə aqressiv olurlar? Aqressiv davranışlar bir çox valideynləri qorxutsada, lakin bu, adətən uşağın inkişafında normal bir mərhələdir. Uşaq öyrənməyə çalışdığı hər şeydən həddən artıq həyəcanlana bilir və nəticədə digər uşaqlara nifrət edə bilir. Əlavə olaraq, uşaq incidilib və ya diqqət yetirilmədiyi görünürsə, qarşısına çıxan hər şeyi itələməklə aqresiyyalarını göstərirlər. 4 İyun - Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Gününün əsas məqsədi dünyanın fiziki zorakılığa, mənəvi-psixoloji və ruhi təsirə məruz qalan bütün uşaqlarının ağrılarını və əzablarını hiss etmək səyidir. Dünyanın harasında olursa-olsunlar, rəngləri, görünüşləri fərqlənsə belə, arzuları, istəkləri eyni olan uşaqlar sevindirmək çox asandır. Ona görə ki, onların istəkləri, umacaqları böyük deyil. Bir xoş təbəssüm, mehriban baxışdan bəxtiyar ola bilirlər. Ancaq böyüklər bəzən onları öz məkrli oyunlarının, bitib-tükənməyən təmənnalarının qurbanlarına çevirirlər. Uşaqlar ömürlərinin sevgiyə, qayğıya daha çox ehtiyac duyduqları çağlarında müharibə adlı fəlakətlə üzləşir, sevincləri, gülüşləri əllərindən alınır. Azərbaycana qarşı XX əsrin sonlarından yenidən torpaq iddiası adı altında təxribatlara başlayan erməni cəlladları da neçə-neçə günahsız uşağın həyatına son qoydu. Birinci Qarabağ müharibəsi illərində ümumilikdə 200-ə yaxın azərbaycanlı uşaq qətlə yetirildi. Təkcə Xocalı soyqırımı zamanı işğalçı ermənilər tərəfindən 63 uşaq öldürüldü. 25 uşaq hər iki valideynini, 130-u isə bir valideynini itirdi.

Birinci Qarabağ müharibəsi zamanı əsir və itkin düşmüş, girov götürülmüş Azərbaycan vətəndaşları arasında uşaqlar da az olmadı. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatına əsasən, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində Birinci Qarabağ müharibəsində 3890 nəfər itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. Rəsmi qeydiyyata alınmış itkinlərin 71 nəfəri uşaqlardır.

Ermənistan bu uşaqların saxlanılması faktını beynəlxalq təşkilatlardan gizlədib, onların sonrakı taleyi barədə məlumat verməyib. Birinci Qarabağ müharibəsindən sonra Ermənistanın əsir və girovluğundan azad edilmiş mülki şəxslərin də 224-ü uşaqlar idi. Uşaq qatilləri olan ermənilər 1994-cü il mayın 12-də atəşkəs barədə protokol imzalandıqdan sonra da qəddar əməllərindən əl çəkmədilər. Azərbaycanlı uşaqların həyatına son qoymaq üçün hər vasitədən istifadə etdilər. Qarqar və Tərtər çayları ilə mina axıdırdılar. Ən dəhşətlisi oyuncaqlara partlayıcı bağlamaqla uşaqları qurban seçirdilər. Tovuz rayonunun Əlibəyli kəndində 13 yaşlı Aygün Zirəddin qızı Şahmalıyeva da 2011-ci il iyulun 14-də bu cür erməni vəhşiliyinin qurbanı oldu. Bu faciədən bir neçə il qabaq da həmin ərazidə Ermənistan tərəfdən çaya buraxılan oyuncağı götürərkən partlayış baş verdi, iki azyaşlı azərbaycanlı uşaqdan biri eynən Aygün Şahmalıyeva kimi oyuncaq partlaması nəticəsində həlak oldu, biri isə yaralandı. Ermənistan silahlı qüvvələri 2011-ci il martın 8-də Ağdam rayonunun Orta Qərvənd kəndində, öz evlərinin həyətində dostları ilə oynayan 9 yaşlı Fariz Bədəlovu snayperlə hədəfə alaraq qətlə yetirdilər. 2017-ci il iyulun 4-də Füzuli rayonu Alxanlı qəsəbəsində 14 aylıq Zəhra

Quliyeva nənəsi Sahibə Quliyeva ilə birgə Ermənistan silahlı qüvvələri tərəfindən açılan atəşlər nəticəsində şəhid oldular.
Atəşkəs dövründə də 34 azərbaycanlı uşaq erməni terrorunun qurbanı oldu. Onlardan 14-ü şəhid oldu, 20-si yaralandı. Faktlar ermənilərin uşaq qatili olduğunu təsdiq etsə də, Azərbaycanın beynəxalq ictimaiyyətdən münaqişənin həllində ədalətli mövqe tələbi cavabsız qalırdı. ATƏT-in Minsk qrupunun həmsədrləri başda olmaqla, beynəlxalq təşkilatların tədbir görməməsi, laqeyd münasibəti nəticəsində Ermənistan bütün dünyanın gözü qarşısında vandalizm aktları törətməkdə davam edirdi. Ermənistanın növbəti təxribatı nəticəsində 2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsində də günahsız uşaqlar şəhid oldular. Ermənistan silahlı qüvvələri döyüş bölgələrindən uzaqlarda yerləşən mülki əhalinin yaşayış yerlərini iriçaplı silahlardan atəşə tutdular. Azərbaycanın Tovuz, Gəncə, Bərdə, Tərtər, Mingəçevir şəhərlərinin Ermənistan ərazisindən raket atəşinə tutulması nəticəsində həlak olanların arasında xeyli azyaşlı vardı. Neçə-neçə uşaq isə ya bir, ya da hər iki valideynini, digər yaxın qohumlarını itirdi, atəş nəticəsində uçmuş evlərinin dağıntıları altında qalaraq ağır xəsarət aldılar. İkinci Qarabağ müharibəsində Azərbaycanın şəhid olan əsgər və hərbi qulluqçularının əksəriyyəti gənc idi. Çoxu yeni ata olmuşdu. Müharibə minlərlə azərbaycanlı uşağı atasız qoydu. 102 körpə isə ataları şəhid olduqdan sonra doğuldu...
Uşaqlara bu statistik məlumatlar əsasında hazırlanmış slayd və ya videoçarxın nümayişini edə bilərik .

Uşaqları uşaqlıq dövrünün sevincindən məhrum edən bəzən də ailədədaxili problemlərlə yanaşı müharibələrin onlara vurduğu acılar nəticəsində qurbana çevrilməsi,uşaqlarını çox sevdiklərini, onların yolunda hətta canlarından belə keçməyə hazır olduqlarını düşünən valideynlər və digər yaxın qohumların yaratdıqları yersiz söz-söhbətlərlə, dava-dalaşlarla onların həyata inamlarını qırdıqlarının, yaşamaq sevinclərini əllərindən aldıqlarının, bir sözlə, uşaqlıqlarından məhrum etdiklərinin fərqinə belə varmadıqları nəticəsində aqressiya qurbanına çevrilməsi nəticəsində yaranan 4 iyun tarixini hamılıqla heç zaman unutmayaq. Zorakılığa uğrayan hər bir uşağı qorumaq mümkün olmasada, nə qədər önləyici tədbirlər görülsə də, uşaqlara qarşı hər il fiziki, psixoloji, zorakılıq faktları qeydə alınır. Gəlin onları birlikdə müdafiə edək.

**F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin mövzu ilə bağlı kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı:**

**Kitablarda**

Çoxşaxəli beynəlxalq hüquq. - Bakı : Elm və Təhsil, 2013. - 324 s.

Kayaoğlu M. Özü-sözü gözəl uşaq. - Bakı : TEAS PRESS Nəşriyyat evi. "Üç alma uşaq

ədəbiyyatı", 2017. - 272 s.

Uşaq hüquqları hamı üçün: Uşaqları dinləyək, onların iştirakını təmin edək! : 20 noyabr 1989-cu

ildə qəbul edilmiş BMT-nin "Uşaq Hüquqları haqqında Konvensiyası"nın"20 illiyi"nə və Azərbaycan Respublikasında "Uşaq ili"nə" həsr olunur. - Bakı : 2009. - 128 s.

**Dövrü mətbuatda**

Ağa N. Beynəlxalq uşaq hüquqları və jurnalistika peşəkarlığı // İşıq. - 2017. - N 2. - S. 58-61.

Atakişiyeva G. Uşaq hüquqları Azərbaycanda : maarifçilərin başlatdığı yol // Azərbaycan Müəllimi. - 2017. - 27 oktyabr. - N 41. - S. 7.

Azərbaycanda uşaqlara qarşı zorakılıqla mübarizə sahəsində görülən işlər digər ölkələr üçün nümunə ola bilər : Milli Məclisdə Dünyada uşaq hüquqlarının qorunması və onlara

qarşı mübarizə hallarına Azərbaycanda qoşulur // Azərbaycan. - 2012. - 1 may . - N 94. - S. 4.

Azərbaycanda uşaqların müdafiəsi islahatı üzrə milli konfrans işə başlamışdır // Xalq qəzeti. - 2009. - 23 oktyabr. - N 236. - S. 3.

Bahar Muradova: Azərbaycan dövləti uşaqların hüquqlarının qorunmasına xüsusi diqqət və qayğı ilə yanaşır // Respublika. - 2016. - 16 dekabr. - N 279. - S. 4.

Dövlət qurumları uşaq hüquqlarının qorunmasında səmərəli fəaliyyət göstərirlər : Azərbaycan uşaqlarının IV Ümumrespublika forumu keçirilib // İki sahil. - 2017. - 21 noyabr. - N 212. - S. 8.

Əliyev R. Azərbaycanda uşaq hüquqlarının qorunmasına xüsusi önəm verilir : Milli Məclisin

Əmək və sosial siyasət komitəsinin sədr müavini Rauf Əliyevin www.yap.org.az saytına müsahibəsi // Yeni Azərbaycan. - 2016. - 2 iyun. - N 98. - S. 6.

Fərəcova Z. Böyüklərin məhv etdikləri dünyanın balaca, məsum sakinləri : 4 İyun Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günüdür // Azərbaycan : qəzet. - 2022. - 4 iyun. - N 116. - S. 6.

Hüseynova H. Uşaq hüquqları: dünəndən bu günə // Yeni Azərbaycan. - 2018. - 5 iyun. – N 106. - S. 5.

Hüseynova H. Uşaq hüquqlarının təmin olunması dövlətin əsas məqsədləri sırasındadır : Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin

sədri Hicran Hüseynovanın www.yap.org.az saytına müsahibəsi // İki sahil. - 2017. - 1 iyun. - N 96. - S. 14.

Qurbanov Ə. "Uşaqlara qarşı zorakılığın aradan qaldırılması" // Savalan. - 2010. – 26-30 noyabr. - N 56/57. - S. 5.

Mənsimov E. Azərbaycanda uşaq hüquqlarına dövlət tərəfindən təminat verilir // Azərbaycan :

qəzet. - 2015. - 19 noyabr. - N 254. - S. 8.

Müşfiqə. Cocuqların günahı nə? : Hər 6 uşaqdan 1-i müharibə şəraitində yaşayır // Yeni Azərbaycan. - 2022. - 4 iyun. – N 98. - S. 7.

Nərimanoğlu M. Onlar səadət və xoşbəxtlik rəmzi olsalar da... // Azərbaycan : qəzet. - 2019. - 20 noyabr. - No 257. - S. 7.

Ömərov V. Beynəlxalq sənədlər uşaq hüquqları haqqında // Səs. - 2018. - 29 iyun. - N 120. - S.

13.

Ömərov V. Küçə uşaqları problemi və uşaqların hüquqlarının müdafiəsinə dair dövlət siyasəti // Səs. - 2018. - 14 iyul. - N 131. - S. 15.

Ömərov V. Uşaq hüquqları beynəlxalq qanunlarda // Səs. - 2018. - 3 iyul. - N 122. - S. 15.

Ömərov V. Uşaq hüquqları haqqında Konvensiyada uşaq hüquqlarının müdafiəsi məsələləri // Səs. - 2018. - 28 iyun. - N 119. - S. 13.

Ömərov V. Uşaq hüquqlarının müdafiəsi sahəsində beynəlxalq nəzarət // Səs. - 2018. - 22 iyun. - N 116. - S. 15.

Ömərov V. Uşaq hüquqlarının müdafiəsi tarixindən // Səs. - 2018. - 1 iyun. - N 104. - S. 15.

Ömərov V. Uşaq hüquqlarının müdafiəsinin əsas istiqamətləri // Səs. - 2018. - 15 avqust. – N 153. - S. 15.

Ömərov V. Uşaqların hüquqlarının müdafiəsi günü // Səs. - 2018. - 31 may. - N 103. - S. 15.

Ömərov V. Uşaqların hüquqlarının müdafiəsinə dair BMT sənədləri // Səs. - 2018. - 15 iyun. -

No 114. - S. 15.

Ömərov V. Uşaqların istismarı // Səs. - 2020. - 18 fevral. - N 32. - S. 15.

Ömərov V. Uşaqların öz hüquqlarını bilmək və öyrənmək yolları // Səs. - 2018. - 30 iyun. – N 121. - S. 15.

Süleymanova E. Gələcəyimiz naminə uşaqlara qayğı // Respublika. - 2016. - 20 noyabr. – N 257. - S. 4.

Süleymanova E. Uşaq hüquqlarının müdafiəsi və təşviqi dövlətimizdə ali məqsədlərdəndir // Respublika. - 2018. - 23 noyabr. - N 262. - S. 6.

Süleymanova E. Uşaqların hüquqlarının müdafiəsi hər birimizin borcudur // Respublika. - 2017. - 19 noyabr. - N 254. - S. 4.

# Uşaqlar sevgi istər

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Nərgiz Məcidova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı:** **www.clb.az**